# Qəbələ Rayon Təhsil Şöbəsi müdiri əvəzi Yaşar Nəzirovun rayon müəllimlərinin ənənəvi sentyabr (2017-ci il) konfransında məruzəsi

**Hörmətli konfrans iştirakçıları!**

Bu gün ölkə iqtisadiyyatının bütün sahələrində baş verən davamlı inkişaf respublikamızda təhsilin səviyyəsinin də paralel şəkildə inkişaf etməsini tələb edir.

Ölkə rəhbərliyinin diqqət və qayğısı nəticəsində milli təhsilimizin inkişafı üçün həm hüquqi baza, həm də maddi baza yaradılmış, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və yenidən qurulması, infrastrukturunun müasir tələblər səviyyəsində yenilənməsi istiqamətində ölkəmizdə heyrətamiz işlər görülmüşdür. Qeyd edim ki, Elektron hökumətin qurulması elementlərindən biri kimi, təhsil sahəsində xüsusi proqram əsasında məlumat bazası yaradılması istiqamətində rayonumuzda da tələb olunan bütün işlər görülmüş, təhsil müəssisələri tərəfindən yeni proqram əsasında məktəblərin həm pedaqoji heyəti, şagirdlər, texniki işçilər haqqında məlumatlar, həm də maddi bazaya aid olan digər məlumatların işlənməsi başa çatdırılmışdır.

Hesabat ilində rayonumuzda 68 ümumtəhsil məktəbi, o cümlədən 53 tam orta, 12 ümumi orta, 3 ibtidai məktəb fəaliyyət göstərmiş, 16694 nəfər şagird 1059 nəfəri 60 məktəbə hazırlıq qruplarına, 15935 şagird isə 977 sinif komplektində birləşdirilmiş, onların təlim tərbiyəsi ilə 2235 nəfər müəllim məşğul olmuşdur.

Rayon üzrə 5 məktəbdənkənar tərbiyə müəssisəsi fəaliyyət göstərmiş, onlarda 81 qrupa 1171 nəfər dərnək üzvü cəlb olunmuşdur.

Rayonun ümumtəhsil müəssisələrində çalışan 2235 nəfər müəllimdən 412 nəfəri orta ixtisas təhsilli, 1823 nəfəri, yəni bütün müəllimlərin 81,6%-i ali təhsillidir. Müəllimlərin əksəriyyəti, yəni 1716 nəfərini qadınlar təşkil edir ki, bu da bütün təhsil işçilərinin 76,8%-i deməkdir.

Rayonumuzun məktəblərində kadrların keyfiyyət tərkibinin yaxşılaşdırılması, onların elmi-metodiki hazırlığının yüksəldilməsi, eləcə də kadrlara olan ehtiyacın ödənilməsi istiqamətində müntəzəm iş aparılır. Bu məqsədlə müxtəlif ixtisaslar üzrə Təhsil Nazirliyinə 240 vakant yer təqdim olunmuş, həmin yerlər nazirlik tərəfindən aparılan yerdəyişmə və yeni işə qəbul imtahanlarından, o cümlədən fərdi söhbətlərdən keçərək işə qəbul olunan yeni müəllimlər tərəfindən tutulmuşdur.

2016-2017-ci dərs ilində rayon müəllimliyinin tarixində ən böyük hadisə müəllimlər arasında diaqnostik qiymətləndirmə imtahanlarının keçirilməsi olmuşdur. İmtahanda 2130 nəfər müəllim iştirak etmiş, onlardan iki nəfəri maksimum nəticə, yəni 60 bal toplamışlar. Müəllimlərdən 385 nəfəri 50 baldan, 746 nəfəri 40 baldan, 669 nəfəri 30 baldan, 268 nəfər isə 20 baldan çox bal toplamışlar. Təəssüflə qeyd etmək lazımdır ki, 60 nəfər müəllim ixtisasdan 10 baldan aşağı nəticə göstərmişdir.

Müasir dövrdə ümumtəhsil məktəblərinin qarşısında duran ən ümdə vəzifə şagirdlərə dərin, fundamental, keyfiyyətli təhsil vermək, ölkəmiz üçün vətənpərvər vətəndaş yetişdirmək, hər bir müəllimin isə vəzifəsi təhsilalanların tələbatını sürətlə dəyişən dünya ilə uzlaşdırmaqdan ibarətdir.



Bu isə hər bir müəllimin şah əsəri olan dərs prosesindən keçir. Dərs müasir informasiyaların mərkəzində dayanan, daim yaradıcılıq tələb edən təlim texnologiyalarından biridir. Rayonda təlimin texniki vasitələrindən, informasiya kommunikasiya texnologiyalarından, müasir elektron lövhələrdən istifadə etməklə öz dərslərini yüksək təlim göstəriciləri ilə quran çoxlu sayda müəllimlərimiz vardır. Biz bu gün onların adlarını müəllimlərin ali məclisinin tribunasından iftixarla çəkə bilərik.

Ölkəmizdə 18 ili əhatə edən bir dövrdə aparılan "Təhsil islahatının" mühüm və aparıcı tərkib hissələrindən biri "Milli kurrikulum"un yaradılması və uğurla həyata keçirilməsidir.Yeni 2017-2018-ci dərs ilində tam orta təhsil pilləsinin X (onuncu) sinfində təhsil prosesi kurrikulumla aparılacaq.

Ümumi orta təhsil pilləsində kurrikulumla tədris prosesi başa çatdığından 2017-2018-ci dərs ilində X siniflərdə təlim prosesinin həm təmayüllü siniflərdə, həm də adi siniflərdə davam etdirilməsi nəzərdə tutulmuşdur. 2016-2017-ci tədris ilində tam təhsil səviyyəsində Respublikanın 124 məktəbində təmayülləşmə üzrə pilot layihə həyata keçirilmişdir. O cümlədən Vəndam qəsəbə 1 saylı tam orta məktəbində texniki fənlər üzrə bir təmayüllü sinif fəaliyyət göstərmişdir. Yeni dərs ilində isə ölkəmizdə tam orta təhsil səviyyəsində təhsilin təmayülləşməsinin şəbəkəsi daha da genişləndiriləcəkdir. Bu məqsədlə pedaqoji kollektivlər, şagirdlər, valideynlər arasında maarifləndirmə tədbirləri keçirilmiş, bütün IX sinif şagirdlərinin valideynlərindən tam orta təhsil səviyyəsində təhsillərini hansı istiqamətdə davam etdirmələri barəsində ərizə alınmışdır. Ərizələr əsasında 13 məktəbdə 16 kombinə edilmiş təmayüllü siniflər yaradılmış, onlarda 345 nəfər şagirdin təhsil alması nəzərdə tutulmuş, rayon üzrə 855 nəfər şagird adi siniflərdə təhsillərini davam etdirəcəklər.

Təhsilin təmayülləşdirilməsi istedadlı şagirdlərin daha dərin və fundamental bilik almalarına şərait yaradacaqdır. Təmayüllü siniflərdə təhsilin keyfiyyətinə, müəllimlərin fəaliyyətinə davamlı şəkildə nəzarət olunacaq, dekabr və may aylarında şagirdlərin təmayül fənləri üzrə bilik və bacarıqlarının monitorinqi keçiriləcəkdir.

Yeni qəbul edilmiş təhsil qanununda ümumi orta təhsilin məcburi olması nəzərə alınaraq IX siniflərdə şagirdlərin buraxılış imtahanlarının nəticələri ümumtəhsil məktəblərinin əsas göstəricisi hesab olunur.

2016-2017-ci dərs ilində IX siniflərdə buraxılış imtahanı yeni formatda keçirilmişdir. Belə ki, imtahanlar iki mərhələdə keçirilmişdir. I mərhələ imtahanları 18 mart 2017-ci il, II mərhələ imtahanları isə 30 iyun 2017-ci il tarixdə keçirilmişdir. I mərhələ imtahanında həm ana dili, həm də riyaziyyatdan 10 açıq sual olmuş, II mərhələdə keçirilən imtahanda bütün suallar qapalı olmuşdur. Hər iki mərhələnin yekununa görə rayonun müvəffəqiyyət faizi 72,07% olmuşdur.

Keçən dərs ilində müəllim və şagirdlərimiz respublika səviyyəli müxtəlif müsabiqələrdə, yarışlarda, fənn olimpiadalarında, beynəlxalq səviyyəli layihələrdə yenə də uğurla iştirak etmişlər. Şəhər 2 saylı tam orta məktəbin riyaziyyat müəllimi Kərimova Natella İsmayıl qızı, şəhər 3 saylı tam orta məktəbin azərbaycan dili və ədəbiyyatı müəllimi Həsənova Sona Müsənnif qızı informasiya kommunikasiya texnologiyalarından və elektron lövhədən istifadə etmək sahəsində böyük təcrübə qazanmışlar. Keçən dərs ilində qeyd olunan vəsaitlərin tətbiqi ilə qonşu məktəblərin fənn müəllimlərini dəvət etməklə həmin müəllimlərin dəfələrlə açıq dərsləri keçirilmişdir.

Vəndam qəsəbə 1 saylı tam orta məktəbin xarici dil müəllimi Mədinə Qasımova Beynəlxalq TEA proqramında iştirak etmiş, 4 mərhələli proqramın axırıncı mərhələsinin qalibi olmuş, 12.09.2017-30.10.2017-ci il tarixlərdə ABŞ-ın Şimali Karolina Ştatının Apalaki Universitetində təlim kurslarında iştirak etmək hüququ qazanmışdır.

Cari dərs ilində 13 nəfər şagirdimiz fənn olimpiadalarının Şəki şəhərində keçirilən zona yarışlarında I yeri tutmuş və respublika turunda iştirak etmək hüququ qazanmışlar. Onlardan 7 nəfəri respublika turunun qalibi olmuş, 1 nəfəri qızıl, 3 nəfəri gümüş, 3 nəfəri isə bürünc medal almışlar.

Azərbaycanın ümummilli lideri ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Ən yaxşı təqdimat" müsabiqəsində şəhər 4 saylı tam orta məktəbin X sinif şagirdi Quliyeva Dünya Şamil qızı Təhsil Nazirliyi tərəfindən tərifnamə ilə təltif olunmuşdur.

Rayonun komandası Zaqatala şəhərində keçirilən intellektual yarışda IV yeri tutmuşlar. Təəssüflə qeyd etmək lazımdır ki, respublika səviyyəli intellektual yarışlarda Qəbələ komandası zəif nəticə göstərir. Odur ki, gələcəkdə bu istiqamətdə işin keyfiyyətini yüksəltmək lazımdır.

VI-VII sinif şagirdlərinin fənn müsabiqəsinin respublika turunda şəhər 1 saylı tam orta məktəbin VII sinif şagirdi Tağıyeva Ceylan Elman qızı biologiya fənni üzrə III yeri tutmuşdur.

Ölkəmiz müharibə şəraitində yaşadığı üçün rayonun ümumtəhsil məktəblərində şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinə ciddi önəm verilir. Bu istiqamətdə keçirilən yarışlarda məktəblərimiz yüksək nəticələr qazanırlar. Abrıx kənd tam orta məktəbin komandası 2017-ci ildə Şəkidə keçirilən "Sərhəd" hərbi idman oyunlarında zona turunun qalibi olmuş, Astara şəhərində keçirilən respublika turunda komandamız müvəffəqiyyətlə çıxış edərək IV yeri tutmuşdur.

24-26 aprel 2017-ci il tarixdə şagirdlərdə dini tolerantlıq, islam xalqları arasında sülh, həmrəylik, əməkdaşlıq, dostluq, əminamanlıq hisslərinin aşılanması, istedadlı uşaqların istedadlarının daha da inkişaf etdirilməsi məqsədilə IV İslam Həmrəyliyi oyunlarına həsr olunmuş respublika müsabiqəsinin zona mərhələsi rayonumuzda keçirilmişdir. Müsabiqədə Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Şamaxı, Göyçay, Ağdaş, Ağsu rayonlarından olan məktəblilərin rəsmləri üç yaş kateqoriyası üzrə nümayiş etdirilmiş, qalib məktəblilər müxtəlif dərəcəli diplomlarla mükafatlandırılmışlar.

Əmirvan kənd tam orta məktəbinin 5 nəfərdən ibarət komandası "Vətənin müdafiəsinə hazıram" çoxnövçülüyü üzrə Mingəçevir şəhərində keçirilən respublika birinciliyində III yeri tutaraq kubok və Gənclər və İdman Nazirliyinin Fəxri Fərmanını almışlar.

**Hörmətli konfrans iştirakçıları!**

Ümumtəhsil məktəblərində təlimin keyfiyyətinin yüksək olmasını təsdiq edən amillərdən birini və əsasını məzunlarımızın respublikanın ali və orta ixtisas məktəblərinə qəbul olunma səviyyəsi təşkil edir. Bu il abituriyentlər arasında qəbul imtahanları iki dəfə keçirilmişdir: may və iyul aylarında. Bu da məzunların daha yüksək nəticə göstərmələrinə zəmin yaratmışdır. Bu sahədə rayonumuz son illərdə davamlı olaraq respublikamızın qabaqcıl regionları sırasında gedi. Bu il də rayonumuzun məzunları həmin ənənəni qoruyub saxlaya bilmişdir.

Qürur hissi ilə qeyd etmək lazımdır ki, ali məktəblərə sənəd verən 850 nəfərdən 527 nəfəri tələbə adını qazanmış və onlardan 57 nəfəri 600-dən çox bal toplamışlar.

**(Ardı 4-cü səhifədə).**